UOT 94

*V.C.Hüseynova, M.B.Əliyeva*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., H.Əliyev pr., 419*
*E-mail: vipvusala@mail.ru*

# BƏRDƏLİ HƏDİS ALİMİ ƏBU BƏKR ƏHMƏD İBN HARUN BƏRDİCİ ƏL-BƏRDƏİ

*Azərbaycanda İslam dini qəbul edildikdən sonra ərəb dili hakim dilə çevrilir. Ərəb Xilafəti tərkibində yaşayan müxtəlif xalqlar arasında əsas ünsiyyət vasitəsi kimi ərəb dili qəbul olunur. Bütün əsərlər bu dildə yazılır, bu dildə yayılır, bu dilin vasitəsilə ümummüsəlman xarakteri alır. Fransız şərqşünası Qustan Löbenin dediyi kimi, "Latın dili orta əsrlərdə Avropada necə yayılmışdısa, ərəb dili də müsəlman xalqları arasında elə intişar tapmışdı". Bu hal ədəbiyyatda daha qabarıq şəkildə özünü göstərirdi. Orta Asiya, Zaqafqaziya, İran xalqları nümayəndələri ərəb dilində yazır, nəticədə, bu dildə ümummüsəlman mədəniyyəti meydana gəlirdi. İsveçrə şərqşünası Adam Mets yazırdı ki, "Ərəbdilli orta əsrlər ədəbiyyatı müxtəlif xalqların birgə yaratdığı, inkişaf etdirdiyi və formalaşdırdığı mədəni irsdir". Buradan belə bir qənaətə gəlmək olar ki, bu dövrdə yaranmış klassik ərəbdilli ədəbiyyata bir xalqın irsi kimi baxmaq, onu bir xalqa məxsus ədəbi proses kimi tədqiq etmək olmaz. Bu irsi müxtəlif xalqlar, millətlər yaratmışlar ki, onlardan da biri Azərbaycan xalqıdır.*

*Orta əsrlərdə Qarabağ ərazisi, burada inkişaf etmiş Bərdə, Beyləqan, Tərtər kimi şəhərlərdə zəngin ədəbi-mədəni mühiti formalaşmışdır. Qeyd edək ki, tədqiq olunan dövrdə ərəb xəlifəsinin bu əraziləri özünə tabe etdiyi zamandan ədəbiyyat sahəsində xüsusi intibah dövrünü yaşayan şəhərlərdən biri, bəlkə də birincisi Bərdə şəhəri olmuşdur.*

*Açar sözlər:* Azərbaycan, Qarabağ, ədəbiyyat, mədəniyyət, Bərdə

Qeyd etmək vacibdir ki, İslamı qəbul etmiş bütün xalqlar kimi o zaman dini-etnik anlamlı ümumi "müsəlman" məfhumu ilə birləşmiş azərbaycanlılar da IX əsrin ortaları - X əsrlərdə tərəqqi, X-XII əsrlərdə çiçəklənmə dövrünü keçirən müsəlman mədəniyyətinin inkişafı prosesində yaxından iştirak etmişlər. Ərəb Şərqinin mədəni mərkəzləri olan Bağdad, Kufə, Bəsrə, Dəməşq, Qahirə və başqa şəhərlərə təhsil almaq üçün çoxlu azərbaycanlı gedirdi. Bu prosesdə Qarabağın tək Bərdə şəhərindən 30-a yaxın şair və alimlər də Qoca Şərqin möhtəşəm elm mərkəzlərinə getmiş, nüfuzlu mədrəsələrdə təhsil almışlar.

Bərdə IX əsr-X əsrin birinci yarısında çiçəklənmə dövrünü yaşamış, tərəqqiyə malik olmuş, Yaxın və Orta Şərqin möhtəşəm şəhərlərindən biri kimi məşhurlaşmışdır. Orta əsr mənbələrində Bərdə «Arranın anası» adlandırılmışdır. Orta əsrlərdə Bərdədə doğulmuş, öz fəaliyyətləri, əsərləri iləYaxın və Orta Şərq ölkələrində tanınmış «Bərdəi» təxəllüslü böyük alimlər nəsli olmuşdur. Onlar Bərdədə və müsəlman dünyasının böyük elm mərkəzlərində dini və dünyavi təhsil almış, Azərbaycanda, həmçinin müsəlman dünyasının bir çox ölkələrində fəaliyyət göstərmişlər. Onların arasında riyaziyyatçı, mühəndis, təbib, tarixçi, filosof, hüquqşünas, şair, hədisçi, natiq, münəccim və siyasi xadimlər olmuşdur.

Əbu Səid Əhməd ibn Hüseyn Bərdəi, Məhəmməd ibn Zeyd Bərdəi, Məkki ibn Əhməd Bərdəi, Əbu Bəkr Məhəmməd ibn Yəhya Hilali əl-Bərdəi, Səid ibn Əmr Əbu Osman əl-Əzdi əl-Bərdəi, Əhməd ibn Ömər Əbu-l-Həsən əl-Bərdəi, Əbu Bəkr Əhməd ibn Harun Bərdici əl-Bərdəi, Əbu Bəkr Əbdü-l-Əziz ibn Həsən Bərdəi, Məhəmməd ibn Xalid Bərdəi, Səid ibn

Qasim Bərdəi, Əbu Əli Hüseyn ibn Süfvan ibn İshaq ibn İbrahim Bərdəi və d. qeyd etmək olar [1, 31].

Bərdəli alimlər sırasında hədis alimi Əbu Bəkr Əhməd ibn Harun Bərdici əl-Bərdəi xüsusilə qeyd etmək lazımdır. Əbubəkr Əhməd Harun oğlu Bərdai Bərdici görkəmli hədis alimlərindəndir. O, vaxtilə Kür çayı sahilində, Bərdənin 14 fərsəxliyində yerləşən Bərdic şəhərində anadan olmuşdur [2, 18].

Burada yazarın adına diqqət etmək yerinə düşərdi. Beləki, Əbu Bəkr Əhməd ibn Harun Bərdici əl-Bərdəi adında "ibn Harun" yani Harunun oğlu diqqəti cəlb edir, Bərdənin adı və onun etimologiyasının öyrənilməsində tarixi və coğrafi əsərlərdə, toponimləri əks etdirən şifahi xalq yaradıcılığı nümunələrində, yazılı ədəbi-bədii əsərlər və etnoqrafik məlumatlarda Bərdə şəhərini bəzən Harun adlandırırlar. Məsələn, Nizami Gəncəvi «İskəndərnamə» poemasında yazır:

Harun (Hurum) adlanırdı bu yurd hər yerdə,
İndisə adına deyirlər Bərdə [4, 195].

Eyni zamanda, XVIII əsrdə tərtib olunmuş «Gəncə Qarabağ əyalətinin müfəssəl dəftəri»ndə Bərdə nahiyəsinin kəndləri sırasında «Harun» adlı kəndin adı çəkilir. Həmin kəndin Tərtər çayının kənarında yerləşdiyi, eyni zamanda orada yaşayış olmadığı bildirilir [5, s. 26].

Yuxarıda qeyd etdiyimiz kimi, IX əsrin II yarısı ərəb mədəniyyətinin çiçəklənmə dövrü hesab olunur. Bu dövrə aid mədəniyyət abidələrinin, zəngin ədəbiyyat nümunələrinin yaranmasında İslam dininin də böyük rolu olmuşdur. Dinin bütün sahələrinə olduqca məsuliyyətlə yanaşan müsəlman alimlər hədis sahəsində də yüksək əzmkarlıq nümayiş etdirmişlər. Onların bir əsəri ərsəyə gətirmək üçün bir çox çətinliklərlə qarşılaşması və lazım gəldikdə uzun məsafələr qət etmələri danılmaz həqiqətdir. Belə ki, ilahi vəhyin digər növü olan hədislərin ilk qaynağı olan səhabələrin bəziləri Məhəmməd peyğəmbər vəfat etdikdən sonra müxtəlif ölkələrdə məskunlaşmışdılar. Buna görə də hədis toplamaq üçün səfərə çıxmaq hər bir hədisçi üçün mühüm şərtlərdən birinə çevrilmişdir.

Əbu Bəkr Əhməd ibn Harun Bərdici əl-Bərdəi Yaxın Şərq ölkələrini gəzmiş, Nişapur, Bağdad və Məkkədə yaşamışdır. Xətib Bağdadi (1002-1071) və Əbusəd Səmani (1113-1167) özlərindən qabaqkı müəlliflərə istinad edərək Əhməd Bərdicinin böyük alim olduğunu, hədisləri əzbər bildiyini yazırlar. Əl-Bərdicinin həyat və yaradıcılığı hədis elminin yüksək inkişaf etdiyi hicri IX əsrə təsadüf etmişdir. Bu dövr hədis elminin ən parlaq və ən məhsuldar dövrü hesab olunur. Hədis elmi ilə bağlı əsərlərin yazılmasının geniş vüsət aldığı, Məhəmməd peyğəmbərin hədislərinin xüsusi bölgülər əsasında irihəcmli kitablarda toplandığı, bəzi alimlərin hədisçilərlə bağlı araşdırmalar apararaq bu sahədə qiymətli əsərlər yazdığı bir dövrdə dünyaya gəlmiş əl-Bərdici özünü xoşbəxt hesab edə bilərdi. Lakin onun adının əbədiləşməsində əsas rol oynamış amil doğulduğu dövr deyil, hədis elmi ilə bağlı fəaliyyətləri olmuşdur. Bu əsrdə məşhur olmaq, yeni mövzuda əsər yazmaq üçün yüksək bacarıq və məharət tələb olunurdu. Bu tələblərə cavab verən əl-Bərdici məşhurlar arasında məşhur olmağı bacarmış və əsrinin böyük mühəddislərindən birinə çevrilmişdir. Əl-Bərdicinin elmi fəaliyyətindən, şəxsi keyfiyyətlərindən danışan İslam alimləri onun barəsində daim müsbət fikirdə olmuş, mənfi fikir söyləməmişlər. Bəzi alimlərin əl-Bərdici barəsində fikir söyləməklə onu təqdir etmələri onun yalnız məşhur alim deyil, həm də əqidəsinə sadiq, səmimi insan olduğundan xəbər verir. Əd- Daraqutni: "O, əmin, sözünə istinad edilən, özünə etibar olunan biridir", Saleh ibn Əhməd əl-Hafiz: "O, dürüst hafizlərdəndir", Əhməd ibn Kamil əl-Qazi: "O, hifzi ilə seçilən hədis hafizlərindən idi", Əl-Xətib əl-Bağdadi: "O, etibarlı, kübar, üstün və zehni açıq biri idi", Əz-Zəhəbi: "O, etibarlı, hafiz və öndərdir", Əbu Şeyx əl-İsbəhani: "O, hədis hafizlərindən və bu sahənin yüksək nüfuz sahiblərindəndir", Əs-Suyuti: "O, hafiz,

imam, etibarlı və nəcib insandır", Əbu Abdulla Məhəmməd ən-Nisaburi: "O, həm faydalanmış, həm də faydalandırmışdır.", İbn İmad: "Şəhərin ən öndə gələn alimlərindən biri idi" deməklə əl-Bərdicinin həm insani, həm də elmi keyfiyyətlərini aydın şəkildə ifadə etmişlər. Azərbaycanlı hədis alimi əl-Bərdicinin yaradıcılığına yuxarıda qeyd olunan sırf hədis qayda-qanunlarını və bu sahənin tələblərini nəzərə alaraq yanaşdıqda onun bu tələblərə lazımi səviyyədə cavab verdiyini görürük. Belə ki, o, təhsil almaq məqsədi ilə çox gənc yaşlarında Azərbaycanı tərk edərək dini mərkəzlərin təşəkkül tapdığı bir sıra ölkələrə səfərlər etmişdir. Azərbaycanlı mühəddis Yaxın Şərq ölkələrini gəzmiş, Nişapur, Bağdad və Məkkədə yaşamışdır. Onun adının sonunda ən-Nisaburi, əl-Bağdadi kimi mənsubiyyət bildirən ifadələrin işlədilməsi də məhz bu səbəbdən irəli gəlmişdir. Əl-Bərdicinin hədislə bağlı müraciət etdiyi şəhərlər arasında Beyrut, Dəməşq, Hums, Misir, Hərran, Kufə və s. şəhərlər də mövcuddur [7].

Görkəmli azərbaycanlı mühəddis Əhməd ibn Harun əl-Bərdici elm öyrənmək məqsədi ilə bir çox mütəxəssislərə müraciət etmiş və müxtəlif elm mərkəzlərində dövrünün məşhur şeyxlərindən, ustadlarından dərs almış, hədis əxz etmişdir. Əl-Bərdicinin dərs aldığı müəllimlərin sayını dəqiq bildirilməsə də, otuzdan çox müəllimin ona elm öyrətdiyi, eləcə də onun rəvayət mənbəyi olduğu bildirilir. Əbu Səid Abdulla ibn Səid ibn Hüseyn əl-Əşəcc, Ubeydulla ibn Abdulkərim ibn Yezid ibn Fərrux əl-Qurəşi ər-Razi, İbn Harun Əbu Cəfər Məhəmməd ibn Musa, Məhəmməd ibn İshaq ibn Məhəmməd ibn İshaq Əbu Bəkr əs-Sağani əl-Bağdadi, Əbu İshaq İbrahim ibn əl-Hüseyn ibn Əli əl-Həmadani əl-Kindi, Cəfər ibn İsa ibn Nuh, Məhəmməd ibn Abdulla əl-Əsəm əl-Məntufi, ər-Rəbi ibn Süleyman Abdulcəbbar ibn Kamil Əbu Məhəmməd, Əbu Abdulla Məhəmməd ibn İsmayıl ibn Muğirə əl-Cufi, Yusif ibn Səid ibn Müslüm əl-Məsisi, Əbu Yaqub və başqaları Əhməd ibn Harun əl-Bərdicinin hədis alimi kimi yetişməsində böyük rol oynamışlar [3,28].

Hədis aləmində həm faydalanmış, həm də faydalandırmış bir alim kimi tanınan Əhməd ibn Harun əl-Bərdici elm sahəsində əldə etdiklərini davamçılarına ötürmək istiqamətində də fəal olmuşdur. Gələcəyin bir çox hədis alimi əl-Bərdicinin əlində yetişmişdir. Onun tələbələri arasında həmyaşıdları ilə bərabər yaşca ondan böyüklərin də olduğu bildirilir. Süleyman ibn Əhməd ibn Eyyub əş-Şami əl-Ləhmi, Əbu Məhəmməd Həsən ibn Əhməd ibn Saleh Əbu Məhəmməd Saleh əl-Həmədani əs-Səbii, Əbu Məhəmməd əl-Bağdadi əs-Səvvaf, Əbu Abdulla Əhməd ibn Tahir ibn ən-Nəcm əl-Məyanəci, Cəfər ibn Əhməd ibn Sənan əl-Qəttan, Əbu Bəkr Məhəmməd ibn Abdulla əş-Şafeyi, Əbu Əli Məhəmməd ibn Lulu əl-Vərraq, Əbu Əli ibn Səvvaf, Əbu Əhməd əl-Əssal, Əbu Əhməd ibn Ədi əl-Cürcani kimi hədis alimləri azərbaycanlı mühəddisin tələbələri olmuşlar.

Əhməd ibn Harun əl-Bərdicinin tarixə məlum "əl-Kəbair"," "Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis"," Mərifətul-muttəsil minəl-hədis vəl-mursəl vəl-məqtu və bəyanut-turuq əs-səhihə"," əl-Mərasil"," əl-Fəvaid"," əl-Cərh və ət-tədil" adlı altı ədəd kitabı vardır. Çox təəssüf ki, azərbaycanlı mühəddisin hədis fəaliyyətinin araşdırılmasında xüsusi əhəmiyyət kəsb edən bu əsərlərin hamısı dövrümüzə qədər gəlib çatmamışdır.

"əl-Kəbair" əsəri əlyazma şəklindədir. Əsərin bir əlyazma nüsxəsi mövcuddur və həmin nüsxə əz-Zahiriyyə kitabxanasında 81 saylı məcmuənin tərkibində mühafizə olunur. Kitabın dövrümüzə qədər gəlib çıxmış bu əlyazma nüsxəsi əz-Ziya əl-Məqdisinin rəvayətinə istinad edir. Əsərin tam adı əlyazma nüsxəsində "جزء  ي فه من روى عن بي ذ ال صدلى الله عليه و سلم من ال صحابة ي ف ر بائ ك ال" [Cuzun fihi mən rəva ənin-Nəbi minəs-səhabə fil-kəbair] (Səhabələrin Peyğəmbərdən "əl-kəbair" (böyük günahlar) mövzusuna dair rəvayətlərini ehtiva edən cüz kitabı) kimi göstərilmişdir. Azərbaycanlı mühəddisin haqqında danışılan əsəri Səudiyyə Ərəbistanı Krallığının Məlik Səud Universitetində çalışan tədqiqatçı alim Məhəmməd ibn

Turki ət-Turki tərəfindən təhqiq olunmuş, lakin böyük ehtimalla hələ də çap olunmamışdır [6].

Əhməd Bərdicinin “Nadir adlar” (“əl-Əsma əl-müfrədə”) kitabının əlyazması nüsxələrindən biri Qüdsün Xalidiyyə, digəri Dəməşqin Zahiriyyə kitabxanalarında saxlanılır. Əsər bəzi peygəmbər əshabələri və onların ardıcılları, habelə hədis alimləri, onların ölkələri və onların haqqında danışanlar barədədir.

Əl-Bərdicinin dövrümüzə qədər gəlib çıxmış digər “Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis”əsəri aidiyyəti mənbələrdə كتاب طبقات الأسماء المفردة من الصحابة والتابعين وأصحاب الحديث [Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis] (Səhabə, tabiun və hədisçilərin nadir adlarından bəhs edən təbəqat kitabı) kimi təqdim olunur. Azərbaycanlı mühəddisin bu əsərinin üç əlyazma nüsxəsi mövcuddur. Nüsxələrdən biri Dəməşqdə “əz-Zahiriyyə” kitabxanasının 525 saylı hədis bölməsində mühafizə olunur. Haqqında danışılan nüsxə VI əsrə məxsus, gözəl nəsx xətti ilə yazılmış, hər üzündə 13-14 sətir olmaqla iki üzlü kiçik parça şəklində olan 20 vərəqdən ibarətdir. Əsərin digər əlyazma nüsxəsi isə “əz-Zahiriyyə” kitabxanasının 46 saylı məcmuəsinin 228-305-ci səhifələrini əhatə edir. Əsərin üçüncü əlyazma nüsxəsinə gəlincə isə bu nüsxə Türkiyə Cumhuriyyətinin, İstanbul şəhərinin Köprülü kitabxanasında I bölüm, 1152 saylı məcmuədə, 164-172-ci vərəqlərdə yer almışdır [6].

Əl-Bərdicinin “Təbəqat” əsəri hədis elminin rical sahəsində çox qiymətli və hal-hazırki tarixədək əldə edilmiş qədim abidələrdən biridir. Müəllif haqqında danışılan əsərdə onun tərəfindən əldə edilmiş hədislərin rəvayət zəncirində varid olmuş nadir adları bəzi hədis meyarlarını da nəzərə alaraq olduqca dəqiq surətdə təbəqələrə bölməklə əsərinə daxil etmişdir. Bütün bunlar onun hədis sahəsindəki elmindən və yüksək təcrübəsindən xəbər verir. Əl-Bərdicinin məqsədi ümumiyyətlə nadir olan adları deyil, hədislə əlaqəsi olan nadir ad sahiblərinin adlarını toplamaqdan ibarət olmuşdur. Əsəri diqqətlə oxuduqda həmin şəxslərin bəzən öz təbəqələrində, yaşadıqları bölgələrdə və bəzən də daşıdıqları ləqəblərlə, hədis sahəsində məşhur olduqları adlarla nadir hesab olunduqları aydın görülür. Orta əsr Azərbaycan filosof və mütəfəkkirlərindən danışan Zakir Məmmədov “Azərbaycan mütəfəkkirinin bu kitabı müsəlman Şərqində VII-X əsrlərin tarixi hadisələrini və ictimai-siyasi fikrini öyrənmək baxımından əhəmiyyətlidir” deməklə əsərə qiymət vermişdir [2, 7].

İslam, xüsusilə də hədis aləminin məşhur alimlərindən biri azərbaycanlı hədis alimi Əhməd ibn Harun ibn əl-Bərdici hicri təqviminin 301-ci (miladi 914) ilinin Ramazan ayında təxminən yetmiş yaşlarında Bağdad şəhərində vəfat etmişdir. Hədis elminə bəxş etdiyi düşüncələri adının əbədiləşməsinə səbəb olmuşdur.

ƏDƏBİYYAT


1. M.Mahmudov. “Ərəbcə yazmış Azərbaycanlı ədib və şairlər VII-XII əsrlər”.- Bakı, Şərq-Qərb, 2006.-192s.
2. Z.Məmmədov. Azərbaycanda XI–XIII əsrlərdə fəlsəfi fikir, Bakı, 1978
3. Z.Məmmədov. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri, Bakı, 1986
4. Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə. Bakı: Lider, 2004, 432 səh.
5. Q.Hacıyev. "Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarixi", Bakı:UniPrint, 2008.
6. https://islamiyyatdotorg.wordpress.com
7. https://www.islamveirfan.com

УДК 94

*В.Дж.Гусейнова, М.Б.Алиева*
*Гянджинское Отделение НАНА*

АБУ БАКР АХМАД ИБН ХАРУН БАРДИЧИ АЛЬ-БАРДАИ - ЗНАТОК ХАДИСОВ ИЗ БАРДЫ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Карабах, литература, культура, Барда

В статье представлены обширные сведения о религиоведе Абу Бакре Ахмаде ибн Харуне Бардичи аль-Бардаи, который родился в средневековом Карабахе, городе Барда и учился в культурных центрах арабского Востока Багдаде, Куфе, Басре, Дамаске, Каире и др. Здесь отмечено, что, поскольку вторая половина IX века была периодом расцвета арабской культуры, мусульманские ученые, весьма ответственно относившиеся ко всем областям религии, проявляли большой интерес в области хадисоведения. Этот период считается самым ярким и продуктивным периодом хадисоведения. В период, рассвета трудов, связанных с наукой о хадисах, было широко распространено, Абу Бакр Ахмад ибн Харун Бардиджи аль-Бардаи путешествовал по странам Ближнего Востока и жил в Нишапуре, Багдаде и Мекке. У Ахмада ибн Харуна аль-Бардичи есть шесть книг, известных истории. Статья важна с точки зрения исследования литературно-культурной среды средневекового Карабаха.

UDC 94

*V.J.Huseynova, M.B.Alieva*
*Ganja Branch of ANAS*

ABU BAKR AHMAD IBN HARUN BARDICHI AL-BARDAI – AN EXPERT OF HADIS FROM BARDA

*SUMMARY*

*Key words:* Azerbaijan, Karabakh, literature, culture, Barda

The article presents extensive information about the religious scholar Abu Bakr Ahmad ibn Harun Bardichi al-Bardai, who was born in medieval Karabakh, the city of Barda and studied in the cultural centers of the Arab East Baghdad, Kufa, Basra, Damascus, Cairo, etc. It is noted here that, since The second half of the 9th century was the heyday of Arab culture, Muslim scholars, who were very responsible in all areas of religion, showed great interest in the field of hadith studies. This period is considered the brightest and most productive period of hadith studies. During the dawn of the works related to the science of hadith, it was widely distributed, Abu Bakr Ahmad ibn Harun Bardiji al-Bardai traveled to the countries of the Middle East and lived in Nishapur, Baghdad and Mecca. Ahmad ibn Harun al-Bardichi has six books known to history. The article is important from the point of view of the study of the literary and cultural environment of medieval Karabakh.

**Daxil oldu: 07.02.2023-cü il**